**“Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanının 2-ci hissəsinə uyğun olaraq “ASAN Kommunal” və “ASAN Xidmət” mərkəzlərində mövcud Texniki Şuraların tərkibində dəyişikliklər edilməsi və yeni Texniki Şuraların formalaşdırılması haqqında” Azərbaycan Respublikası Energetika Nazirliyinin 2019-cu il 22 iyul tarixli F-68 nömrəli əmrində dəyişikliklər edilməsi haqqında**

“Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanının 6.2-ci bəndini və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikası Energetika Nazirliyinin 2019-cu il 22 iyul tarixli F-68 nömrəli Əmrinin 1.1-ci bəndinin “Şuranın üzvləri” hissəsində “Nurəddin Osmanlı - Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin Şəhər Ərazisinin Tikinti-Planlaşdırma İdarəsinin baş mühəndisi” sözləri “Moyla Camalov - Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin Tikinti-Planlaşdırma şöbəsinin Mühəndis təminatı sektorunun baş məsləhətçisi” sözləri ilə, 1.2-ci bəndinin “Şuranın üzvləri” hissəsində “Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin Mühəndis təminatı şöbəsinin rəisi” sözləri “Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin Mühəndis-kommunikasiya təminatı sektorunun müdiri” sözləri ilə əvəz edilsin.
2. Elektron idarəetmə sektoru bu əmrin Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
3. Ümumi şöbə bu əmrin surətinin Nazirliyin aparatının aidiyyəti struktur bölmələrinə, Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinə və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə çatdırılmasını təmin etsin.
4. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

*Əsas: Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 2019-cu il 8 avqust tarixli 12/08-4520 nömrəli məktubu.*

**Nazir** **Pərviz Şahbazov**